# Görkəmli iqtisadçı alim



***XX əsrin ikinci yarısı Azərbaycan xalqının iqtisadi fikrində ən məhsuldar bir dövr kimi artıq tarixə düşmüşdür. Bu dövrdə iqtisad elminin müxtəlif sahələri üzrə fundamental, dərin tədqiqatlar aparılmış, yüksək ixtisaslı peşəkar iqtisadçı tədqiqatçılar hazırlanmışdır. İlk dəfə olaraq respublikada nüfuzlu iqtisad elmi məktəbləri yaranmışdır. Şübhəsiz bu tarixin yaradıcıları dövrün iqtisadçı alimləridir. Şahbaz Musa oğlu Muradov da Azərbaycan iqtisadi fikrini bu dövrdən etibarən təmsil edən alimlərdən biridir.***

Şahbaz Muradov 1940-cı ildə Azərbaycanın dilbər guşələrindən biri olan Laçın rayonunda anadan olub. 1961-ci ildə Azərbaycan Dövlət Universitetinin iqtisad fakültəsini fərqlənmə diplomu ilə bitirib gənc mütəxəssis kimi Azərbaycan EA İqtisadiyyat İnstitutuna təyinatla işləməyə göndərilmiş və indiyə qədər bütün yaradıcı həyatını bu İnstitutla bağlamışdır. Burada kiçik elmi işçi, baş elmi işçi, şöbə müdiri, elmi işlər üzrə direktor müavini, 1999-2008-ci illərdə isə İnstitutun direktoru vəzifəsində çalışıb. O, 1965-ci ildə namizədlik, 1972-ci ildə doktorluq dissertasiyalarını müdafiə edib. 1977-ci ildə professor elmi adını alıb, 2001-ci ilin iyununda AMEA-nın müxbir üzvü seçilib. Hazırda bu İnstitutda "İş qüvvəsinin təkrar istehsalı və demoqrafiya problemləri" şöbəsinin müdiri vəzifəsində fəaliyyətini davam etdirir.

Professor Şahbaz Muradovun EA İqtisadiyyat İnstitutundakı 55 illik fasiləsiz elmi yaradıcılığının nəticələri Azərbaycanda və dünyanın bir çox ölkələrində çap edilmiş 500-dən çox elmi əsərlərində əksini tapıb. 850 çap vərəqi həcmindən çox olan bu əsərlərin 30-u irihəcmli monoqrafiya və kitablardan ibarətdir. Onun elmi kadrların hazırlanması sahəsindəki xidmətləri əvəzsizdir. Professor Şahbaz Muradovun rəhbərliyi altında neçə-neçə elmlər doktorları hazırlanmışdır. 2000-ci ildə onun təşəbbüsü ilə AAK-sı tərəfindən yaradılmış və 8 il sədrlik etdiyi Dissertasiya Şurasında 125 nəfər namizədlik, 13 nəfər doktorluq disertasiyası müdafiə etmişdir. Onların müvafiq surətdə 55 və 6 nəfərini İnstitutun əməkdaşları təşkil etmişdir. Professor Şahbaz Muradov 35 nəfərdən çox tədqiqatçının dissertasiya işinə rəsmi opponentlik etmiş, çoxsaylı monoqrafiyalar və dərsliklərin elmi redaktoru, rəyçisi olmuşdur. Fikrimizcə, bu rəqəmlər professorun gördüyü işlərin iri miqyası barədə tam təsəvvür yaradır. Lakin alimin Azərbaycan iqtisadi fikrində konkret rolunu qiymətləndirmək üçün onun əsərlərinin bir qədər geniş təhlilini vermək vacibdir.

Görkəmli iqtisadçı alim kimi Şahbaz Muradovun bütün elmi yaradıcılığının ana xəttini belə bir ideya təşkil edir: İnsana diqqət və qayğının hər cəhətdən (təhsil, elm, səhiyyə, istirahət, mənzil kommunal xidməti, maddi və mənəvi maraq və ümumilikdə rifah səviyyəsi) artırılması onun fəallaşmasına və böyük iqtisadi nəticələr qazanmasına səbəb olur. Terminoloji fərqlər nəzərə alınmazsa, bu, "İnsan kapitalı" nəzəriyyəsinin müasir variantlarından biri kimi səslənir.

**Şahbaz Muradovun elmi yaradıcılığını araşdırarkən yaranan ilk təsəvvür ondan ibarət olur ki, o, uzun müddət eyni bir problemin - Azərbaycanda əmək ehtiyatları və demoqrafiya problemlərinin tədqiqi ilə məşğul olmuşdur.** Lakin bu problemlər çoxaspektli və əhatəli olduğundan onların mükəmməl öyrənilməsi üçün müəyyən tədqiqat metodunu əsas götürmək və uzun zaman lazım gəlmişdir. Alimin istifadə etdiyi metod sadədən mürəkkəbə, xüsusidən ümumiyə, konkretdən abstraktda keçid metodudur. O, ilk əsərlərini Azərbaycan kənd təsərrüfatında qadın əməyi və ondan səmərəli istifadə edilməsinə həsr etməklə sonra bütövlükdə respublikada qadın əmək ehtiyatlarından istifadənin sosial-iqtisadi problemlərini, daha sonra isə ümumiyyətlə əmək ehtiyatlarını, insan kapitalını, demoqrafiya siyasətini, insan potensialını, ölkədə baş verən etno-demoqrafik prosesləri nəzəri-metodoloji və praktiki aspektlərdən tədqiq etmiş və fundamental monoqrafiyalar şəklində nəşr etdirmişdir.

Şahbaz Muradov MDB məkanında ilk dəfə olaraq qadın məşğulluğu və məşğulluq sahəsində gender problemlərinin tədqiqi ilə məşğul olan görkəmli demoqraf alim kimi tanınmışdır. Keçmiş SSRİ-də və Azərbaycanda bu problemin sosial-iqtisadi və demoqrafik aspektlərinin kompleks şəkildə tədqiqi onun adı ilə bağlıdır. Onun 1974-cü ildə "Elm" nəşriyyatında çap olunmuş "Azərbaycan SSR-də qadın əmək ehtiyatlarından istifadənin sosial-iqtisadi problemləri" adlı monoqrafiyası isə elə həmin ildə SSRİ Elmlər Akademiyasının Rəyasət Heyəti tərəfindən sovet elminin ən mühüm nailiyyətləri sırasına daxil edilmişdir. Azərbaycan Elmlər Akademiyası SSRİ EA-nın tərkibində olduğu 46 il ərzində (1945-1991-ci illərdə) iqtisadiyyat elmi sahəsi üzrə Azərbaycandan SSRİ EA Rəyasət Heyətinin Hesabatına daxil edilmiş 23 elmi nəticənin 9-u (39,4%-i) professor Şahbaz Muradovun şəxsən özü və onun elmi rəhbərliyi ilə yerinə yetirilmiş tədqiqat işlərinin payına düşmüşdür. Onun 60-dan çox əsəri xarici ölkələrdə, o cümlədən ABŞ, Rusiyada, Ukraynada, Belarusda, Gürcüstanda, Baltikyanı ölkələrdə və Orta Asiya respublikalarında; bəziləri isə ingilis dilində çap edilib dünyanın bir çox ölkələrində yayılmışdır. Professor Şahbaz Muradov xarici ölkələrin görkəmli iqtisadçı və demoqraf alimləri ilə birlikdə Moskva şəhərində rus dilində çap edilmiş 15-dən çox irihəcmli monoqrafiyaların müəlliflərindən biridir.

**Şahbaz Muradov Moskvada dərc olunan yazılarında hər dəfə respublika və milli mənafe baxımından həlli vacib bu və ya digər məsələyə müvafiq mərkəzi orqanların diqqətini cəlb etməyə çalışmışdır.** Mübahisəli nəzəri məsələlərə isə öz mövqeyini bildirməklə onları geniş diskussiya obyektinə çevirə bilmişdir.

Məsələn, o zaman orta İttifaq göstəriciləri ilə müqayisədə Azərbaycanda əhalinin yüksək təbii artımının mövcudluğunu əsas götürərək tədqiqatçı alim təhsil, səhiyyə, sosial xidmət, mənzil-məişət xidmətinin də buna uyğunlaşdırılmasını təklif edir, bununla əlaqədar Moskvanın əlavə tədbirlər görməsi zərurətini qeyd edirdi. Keçən əsrin 70-80-ci illərində mənfi qalıqla müşayiət olunan əhali miqrasiyasının (respublikadan gedənlər respublikaya gələnlərdən çox idi) əhalinin təbii təkrar istehsalını aşağı salması tədqiqatçı alim kimi onun diqqətini cəlb edir və müvafiq təkliflər işləyib hazırlayırdı. Nüfuzlu "Вопросы экономики" jurnalında məqalə dərc etdirməyin məsuliyyətini və hər alimə nəsib olmadığını iqtisadçılarımız yaxşı bilirlər. Jurnalın 1988-ci ilin 6-cı sayında Şahbaz Muradovun "Regionda əhalinin səmərəli məşğulluğu" adlı məqaləsi çıxır. Məqalədə ölkənin qəbul edilmiş sosial-iqtisadi inkişafının sürətləndirilməsi xəttinin həyata keçirilməsi üçün insan amilinin fəallaşdırılmasının konkret yolları göstərilmişdir.

Müəllif ilk dəfə olaraq əmək resurslarından istifadəyə regional yanaşmanın vacibliyini qeyd edir və onun məzmununu açır.

**XX əsrin 90-cı illərindən sonrakı dövrü Şahbaz Muradovun elmi fəaliyyətində daha intensiv, məhsuldar, problemlərə yeni baxışla seçilən bir dövr kimi səciyyələndirmək olar.** Müstəqillik illərində onun yuxarıda adlarını çəkdiyimiz üç fundamental monoqrafiyası və çoxsaylı məqalələri nəşr olunur. Bu monoqrafiyalarda insan potensialı, qloballaşma, əhalinin dinamikası və quruluşu, əmək fəallığı, əhalinin tərkibində baş verən əsas demoqrafik və etnodemoqrafik dəyişikliklər tədqiq olunur. Prof. Şahbaz Muradovun bütün əsərlərində müstəqillik illərində müəyyən səbəblərdən respublika əhalisinin təbii artımının azalmasına mənfi mövqe bildirilməsini alimin vətənpərvərliyi ilə izah etmək hələ azdır. Burada əhalinin artımından böyük ictimai-iqtisadi effektin əldə olunacağının əsaslandırılması da diqqətəlayiqdir. **Hələ SSRİ dövründə respublikada əhalinin nisbətən yüksək təbii artımının mövcudluğu faktından** (1959-1989-cu illərdə Azərbaycanda əhalinin orta illik artım sürəti keçmiş SSRİ-dəki orta göstəricidən 2,4 dəfə çox olmuşdur) **bu sahədə heç bir problemin yarandığı və onun tənzimlənməsinə ehtiyacın olmadığı mövqeyində olanların əksinə olaraq o, sübut edirdi ki, hər bir respublikanın demoqrafik inkişaf xüsusiyyətləri nəzərə alınmaqla bu sahədə səmərəli demoqrafik siyasəti işlənib hazırlanmalıdır.** O, bu mövqeyini 20 il ərzində (1971-1991-ci illərdə) büro üzvü olduğu keçmiş SSRİ Elmlər Akademiyasının nəzdində fəaliyyət göstərmiş **"Əhalisakinliyinin sosial-iqtisadi problemləri"** və **"Demoqrafiya və əmək ehtiyatları problemləri"** Elmi Şuralarının Büro iclaslarında və onların vasitəçiliyi ilə keçirilən ümumittifaq və regional xarakter daşıyan elmi konfranslarda və seminarlarda cəsarətlə müdafiə edir və istəyinə nail olurdu. Professor Şahbaz Muradov keçmiş SSRİ EA-sı tərəfindən hazırlanmış Demoqrafiyaya dair ETT-nin Kompleks Proqramının yekun nəticələri üzrə 1979, 1983 və 1987-ci illərdə Moskva şəhərində çap olunmuş 50,0 ç.v. həcmində üç cildliyin müəllifindən biri olmuşdur. Onun 2001-ci ildə ABŞ-ın Nyu-York şəhərində ingilis dilində çap edilmiş **"Azərbaycanın demoqrafik inkişafı XXI əsrin astanasında: əsas meyillər və problemlər"** adlı məqaləsi də elmi ictimaiyyətin marağına səbəb olmuşdur. Professor Şahbaz Muradovun elmi rəhbərliyi və bilavasitə iştirakı ilə ulu öndərimiz Heydər Əliyevin 28 dekabr 1998-ci il və 24 iyun 2003-cü il tarixli sərəncamları ilə ilk dəfə olaraq Azərbaycan Respublikasında işlənib hazırlanmış **"Azərbaycan Respublikasının demoqrafik inkişaf konsepsiyası" (1999-cu il) və "Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı" (2004-2008-ci illər), həmçinin "Azərbaycan Respublikasının məşğulluq strategiyası" (2006-2015-ci illər) işlənib hazırlanmış və ölkə rəhbəri İlham Əliyev tərəfindən təsdiq edilmişdir. Burada xüsusi olaraq onu da vurğulamaq lazımdır ki,** sovet dövründə əmək və demoqrafiya sahəsində aparılan tədqiqatlarda əhali əsasən əmək resursu kimi - say, yaş-cins, peşə-ixtisas tərkibinə görə tədqiq olunurdu. Əhalinin etnik-milli tərkibi sanki geniş maraq dairəsindən çıxarılmışdı. Çünki vahid sovet xalqını formalaşdırmaq kimi ideoloji bir məqsəd qarşıya qoyulmuşdu. Halbuki, milli-mənəvi dəyərləri saxlamaq və ötürmək, ümumiyyətlə millətin varlığını təsdiq etmək baxımından etno-demoqrafik prosesləri öyrənmək çox vacibdir. Azərbaycan xalqına qarşı (xüsusən Rusiya tərəfindən) əsrlərlə həyata keçirilən assimilyasiya siyasətinin mahiyyətini üzə çıxarmaq, ermənilərin əsassız iddialarına tutarlı cavablar vermək üçün Azərbaycan ərazisində əhalinin milli tərkibinin formalaşmasını tədqiq etmək tarixdəki bir çox ağ səhifələri və qara ləkələri aradan götürmək üçün əhəmiyyət kəsb edir. **Müstəqillik illərində Şahbaz Muradovun rəhbərliyi ilə bu sahədə geniş tədqiqatlar aparılmış və indi də davam etdirilməkdədir.** Bu tədqiqatlarm nəticəsi olaraq 2015-ci ildə Şahbaz Muradov və Ç.Baxışın **"Azərbaycan Respublikasında etno-demoqrafik proseslər: tarixi dəyişikliklər və reallıqlar"** adlı çox maraqlı monoqrafiya nəşr olunmuşdur. Kitabda ilkin mənbələr, əhali sayımları, tarixi ədəbiyyat materialları əsasında təqribən 100 ildən çox bir dövrdə Azərbaycan əhalisinin etno-demoqrafik tərkibinin dəyişməsi meyilləri, bu dəyişiklikləri törədən səbəblər elmi cəhətdən tam dəqiqliklə araşdırılmışdır. Müəyyən olunmuşdur ki, 30-cu illərdə ermənilərin daha çox artımı miqrasiya ilə bağlı idi; azərbaycanlıların SSRİ-nin digər ərazilərində işləməsini stimullaşdırmaq əhalinin milli tərkibinə və məskunluğuna, Azərbaycanda iqtisadiyyatı inkişaf etdirməyə qarşı olan bir tədbir idi; Pribaltika respublikalarında həyat səviyyəsinin yüksək olması burada digər millətlərin, xüsusən rusların yerləşdirilməsi və milli tərkibin dəyişdirilməsi məqsədindən irəli gəlirdi və s. **Bu kitabda ilk dəfə olaraq təhlil edilən və elmi dövriyyəyə buraxılan məlumatlar əsasında müəyyən edilmişdir ki, əhalinin 10 faizinin qaçqın olduğu bir ölkədə miqrasiyanın intensivliyinin azalması, əhalinin milli tərkibinin sabitliyi müşahidə edilir. Bu müsbət meyillərin gələcəkdə davam edəcəyini söyləməklə tədqiqatçı alimlər bu sahədə Avropada gedən proseslərlə müqayisədə Azərbaycan modelini nümunə olaraq təqdim etmiş olurlar.**

Şahbaz Muradov elmdə dəqiq ünvanı məlum olan alimdir. O, insan kapitalı kimi həmişə aktual olan bir problem sahəsində sözünü demiş, iqtisadçılar və elmi ictimaiyyət tərəfindən kifayət qədər tanınmışdır.

Prezident İlham Əliyevin AMEA-nın 70 illik yubileyindəki çıxışında demoqrafik inkişafı bu gün Azərbaycanın mühüm nailiyyətlərindən biri hesab edir. Diqqəti bir tərəfdən bu inkişafı şərtləndirən, digər tərəfdən isə onun ortaya qoyduğu problemlərə yönəldir. Deməli, Şahbaz Muradovun vaxtı ilə və indi apardığı tədqiqatlar müasirdir, aktualdır və dövləti əhəmiyyət kəsb edir.

Şahbaz Muradovun xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, "Şöhrət" ordeni, "Fədakar əməyə görə" Yubiley medalı, "Əmək veteranı" medalı və s. mükafatlara layiq görülüb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 05 noyabr 2015-ci il tarixli fərmanı ilə o, Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Elmdə varislik prinsipi labüddür və o, elmin inkişafının təbiitarixi prosesi ilə şərtlənir. Lakin bu prinsipin bir ailənin timsalında gözlənilməsi az-az təsadüf edilən hadisələrdəndir. Şahbaz Muradovu müasirlərindən fərqləndirən bir cəhət də odur ki, alimin təmsil etdiyi əmək iqtisadçıları məktəbinin layiqli davamçıları elə onun özünün ailəsində yetişməkdədir. Respublikanın gənc iqtisadçı alimləri sırasında artıq özlərinin dəst-xətti ilə seçilən Rəşad və Rövşən Muradov qardaşları da vardır.

Hər bir ölkənin gücü onun elmindədir. Professor Şahbaz Muradov elmi yaradıcılığın müdriklik dövrünü yaşayır. O, əvvəlki həvəslə tədqiqatlarını davam etdirir. Bu mənada tədqiqatçı alim xalqının, ölkəsinin güclənməsi naminə böyük fədakarlıq göstərir.

**R.SULTANOVA,**
**İqtisad elmləri doktoru, professor, AMEA İqtisadiyyat İnstitutunun şöbə müdiri.**

**X.KƏRIMOV,**
**BDU-nun dosenti.**